# “Aşıq dastanları” – canlı söyləmələr

**Azərbaycan Aşıqlar Birliyində nəşrə hazırlanan “Aşıq dastanları” çoxcildliyinin 3-cü cildi işıq üzü görüb.**



Kitab, Azərbaycan Aşıqlar Birliyi və “Mədəniyyət” kanalının birgə layihəsi olan “Saz-söz məclisi” verilişində (2022–2024) oxunan dastanların əsasında işlənib hazırlanıb. Ustad aşıqlar və yeni nəsil ifaçıların repertuarından videoyazıya alınan dastan-rəvayətləri əhatə edən bu cild özündən əvvəlki toplular kimi dastançıların təhkiyə tərzini, eləcə də dil-üslub özəlliklərini qoruyan epik mətnlərlə zəngindir.

“Aşıq dastanları” üçcildliyi gələcək dastan nəşrlərinin ortaya çıxması üçün bir təkan olmaqla yanaşı, yeni nəsil aşıqlar, folklorçular və musiqişünaslar üçün də faydalı mənbə rolunu oynayır.

Cildin elmi məsləhətçisi Azərbaycan Aşıqlar Birliyinin sədri, Dövlət mükafatı laureatı Məhərrəm Qasımlı, nəşrə hazırlayanlar Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı, filologiya elmləri doktoru, professor Mahmud Allahmanlı, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu və filologiya üzrə fəlsəfə doktoru, dosent Altay Məmmədlidir. Cildin redaktoru, filologiya üzrə fəlsəfə doktoru dosent Aynur Xəlilovadır.

***S.FİDAN***
***XQ***

Xalq qəzeti.- 2025.- 2 aprel (№ 62).- S.16.